Avqustun 16-dan 28-dək davam edən yarışda dünyanın 170 ölkəsindən 3500 yeniyetmə idmançı öz qüvvəsini sınayır. 14-18 yaşlı atletlər 184 dəst medal uğrunda mübarizə aparırlar.

Avqustun 17-də 3 Azərbaycan təmsilçisi – Natiq Qurbanlı (cüdo-55 kq.), Leyla Əliyeva (cüdo-44 kq.) və Ceren Özbek (taekvondo-44 kq.) olimpiadanın gümüş medalına layiq görülüblər.

Qeyd edək ki, Azərbaycan komandasının tərkibinə Teymur Məmmədov (sərbəst güləş-63 kq.), İqbal Hacızadə (sərbəst güləş-100 kq.), Leyla Qurbanova (qadin güləşi-52 kq.), Cabbar Nəcəfov (Yunan-Roma güləşi-50kq.), İslambek Dadov (Yunan-Roma güləşi-69 kq.), Səid Quliyev (taekvondo-73 kq.), Gülxanım Yeşildağ (taekvondo-55kq.), Ceren Özbek (taekvondo-44 kq.), Safiyə Polat (taekvondo-49 kq.), Məhəmmədəli Tahirov (taekvondo-91 kiloqramdan ağır), Rüfət Hüseynov (taekvondo-49 kq.), Məsud Yusifzadə (boks-52 kq.), Elvira Həsənova (üzguçülük-sərbəst üsulla), Nazim Babayev (atletika-üçtəkanla tullanma), Behafeta Abreha (qaçış-3000 metr), Yelena Qladkova (atletika-şüvüllə tullanma), Boris Yotov (akademik avarçəkmə), Natiq Qurbanlı (cüdo-55 kq.), Leyla Əliyeva (cüdo-44 kq.), Ürfan Axundov (atıcı-pnevmatik tapança-10 metr) və Suqraxanım Müqabilzadə (kamandan oxatma) daxildir.